# Vətənə böyük məhəbbət duyğuları

**Nəriman Əyub sonuncu (hələlik sonuncu) kitabının əlyazmasını bu günlərdə mənə verdi, özü də ürəklə, ərklə dedi ki, al oxu , fikrini yaz. Mən də oxudum, rəy yazanda da ilk dəfə dilimə gələn "şükür" kəlməsi oldu. Ona görə ki, Nəriman müəllim ömrünün ahıl çağında hələ də böyük şövqlə yazıb- yaradır. O, həyatın sərt sınaqlarında ruhdan düşmür. Vətənə, xalqa inamını itirmir, yurdumuzun gözəlliklərini tərənnüm edir. Vətənimizin bayrağını hər şeydən uca tutur. Onun şəninə sidq- ürəkdən nəğmələr qoşur. Vətənimizin sərvətlərinə göz dikənləri nifrətlə qamçılayır. Hərdən düşünürəm ki, Nəriman müəllimdə bu qədər, ilham, həvəs hardandır, bu güc-qüvvət ona hardan gəlir?**



**Iyirmi yaşında işə başladım,**
**Yaxşı işçi kimi ucaldı adım.**
**Atam Əyyub oldu mənim ustadım,**
**Doğsan il yaşadı, Anam da, şükür.**

Şeidən göründüyü kimi, Nəriman müəllimin ilham mənbəyi yalnız əməkdir, sevdiyi işlə, peşə ilə məşğul olmaqdır və ustadı atası Əyyubdur, o da mənalı ömür yaşayıb və ən əsası hər gördüyü işdən sonra o sirli -xudaya şükür eləməkdir.

Kitabı üç hissəyə bölmək olar. Poemalar: -"Ulu Öndər", "Tərcümeyi -hal", Rübailər və müxtəlif səpkili şeirlər.

Istər poemalrda, rubailərdə və müxtəlif səpkili şeirlərdə həyatın, daha doğrusu, Azərbaycanımızın tarixi bədii lövhələrlə əks olunur. "Ulu Öndər" poemasında 20-ci əsrin ikinci yarısından başlayan tariximiz öz əksini tapır. Bu tarixin qəhrəmanı Azərbaycan xalqının ləyaqətli oğlu Heydər Əliyevdir. Onun içtimai -siyasi fəaliyyəti poemanın əsas sujet xəttini təşkil edir. Ulu Öndərin xalqın təkidi ilə ikinci dəfə hakimiyyətə gəlməsi və daxili düşmənlərimizlə xarici düşmənlərlin əlbir olub yaratdıqları çətinliklərə baxmayaraq, Heydər Əliyevlə və xalq birliyinin təntənəsi hər şeyi dəf edir və poemada bu mübarizə bədii lövhələrlə geniş tərənnüm olunur. Heydər Əliyevin dövlətçilik təcrübəsi, xalq sevgisi, siyasi uzaqgörənliyi poemada böyük məhəbbətlə qələmə alınıb. Erməni işğalçılarına dərin nifrət hissi, dövlətçiliyimizə böyük inam poemanın əsas məzmunudur.

Nəriman Əyyubun belə şövqlə yazıb -yaratmasının daha bir ciddi səbəbi var. Bu da onun Qərbi Azərbaycanda anadan olmasıdır. Onun qanında qədim yurd yerlərimizin sevgisu çövlan eləyir. Həmin sevgidir şairimizə qol-qanad verən. Dağlarımızın, axarbaxarlı yaylaqlarımızın mayasıdır onun qan damarlarını belə çoşduran. Nəriman Əyyub "Tərcümeyi-hal" poemasında öz taleyini yazmışdır. Şairin faciəli taleyi xalqının taleyi ilə eynidir. Bu faciəli tale 1949-53- illərdə Stalinin əmri ilə 100 min azərbaycanlının Kür- Araz ovalığına köçürülməsidir. Dədə-baba yurd yerlərinindən didərgin salınan azərbaycanlırının biri də Nəriman Əyubun ailəsidir. Şair hələ də o doğma yerlərin həsrətini çəkir. Poema Qərbi Azərbaycanın canl xatirəsi və xəritəsidir.

**Çay qırağı, yaşı meşə, göy çəmən,**
**Çayın gözəl şırıltısın sevirəm.**
**Meşədəki yaşıl yarpaq yasəmən,**
**Külək vuran xırıltısın sevirəm.**

**Kəpəzin qoynunda o xan bulağı,**
**Qırx bulağı olan gözəl yaylağı.**
**Hacadili olan o gözl dağı,**
**Şimşək çaxan nəriltisin sevirəm.**

Poemada Qərbi Azərbaycanın yer-yurd, dağ, çay -bulaq, kənd, eloba adları böyük məhəbbətlə təsvir edilir. Nəriman Əyyub həmin yerlərdən güc-qüvvət almışdır. Onun ilham mənbəyi qoyub gəldiyi, əlindən alındığı doğma, əziz yurd yerləridir. Yurd yerinin ağrısı Nəriman müəllimin bütün şeirlərində ana xətt kimi keçir.

**Çay kimi çağlayan Porpor bulağı,**
**Ondan aşağıda Ələkbər dağı.**
**Ağmanqalın, Dəvəgözün yaylağı,**
**Orda kəhər çapan Ərən necə oldu?**

**Vedibasarımın Milli dərəsi,**
**O Mirzik kəndində gəldim dünyaya.**
**Gözəldir bu yerin hər mənzərəsi,**
**Oradan boylandım günəşə, aya.**

Nəriman Əyyubun kitaba daxil etdiyi rubailəri içitimai, fəlsəfi xarekter daşıyır. Burda da vətən, xalq məhəbbəti əsas rol oynayır. Şairin vətən sevgisi, müharibəyə qarşı kəskin etiraz, sülhə, əminamanlığa çağırış şairin əsas məqsədidir.

Kitabda şairin müxtəlif mövzularda şeirləri də daxil edilmişdir. Nəriman müəllim öz dəsti-xəttinə həmişə sadiq qalaraq qələmini müxtəlif mövzularda sınayır.

**Axırıncı çərşənbə, Novruz bayramı,**
**Gəldi ürəyimə naz təzələndi.**
**Oynadı, rəqs etdi, şənləndi hamı,**
**Bu qoca qəlbimdə söz təzələndi.**

Nəriman Əyyub həmişə şair kimi təzə və yenidir.

Mən Nəriman Əyyuba yeni yaradıcılıq uğurları arzu edirəm.

**Qəşəm Nəcəfzadə,**
**Şair, AYB-nin**
**İdarə heyətinin üzvü**